İPƏK YOLU, No.1, 2023, səh.59-66

# COVID-19 PANDEMİYASININ AZƏRBAYCANDAN ÇİNƏ İXRACA TƏSİRİ

**Aslan Əzimzadə**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: aslan_azimzadeh@unec.edu.az

**Xülasə**. Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında ticarət-investisiya əlaqələrinin dayanıqlı formada inkişaf etməsini nəzərə alaraq məqalədə COVID-19 pandemiyasının bu olkələr arasındakı idxal və ixrac əməliyyatlarına təsiri araşdırılmışdır.

**Açar sözlər**: COVID-19, ticarət, Çin Xalq Respublikası, mühüm növ məhsullar, ixrac.

**IMPACT OF THE COVID-19 PANDEMIC ON EXPORTS FROM AZERBAIJAN TO CHINA**

**Aslan Azimzadeh**
*Azerbaijan State University of Economics (UNEC), Baku, Azerbaijan*

**Abstract.** Taking into account the stable development of trade and investment relations between the Republic of Azerbaijan and the People's Republic of China, the impact of the COVID-19 pandemic on import and export operations between these countries has been investigated in the paper.
**Keywords**: COVID-19, trade, People's Republic of China, the most important products, export.

**ВЛИЯНИЕ ПАНДЕМИИ COVID-19 НА ЭКСПОРТ ИЗ АЗЕРБАЙДЖАНА В КИТАЙ**

**Аслан Азимзаде**
*Азербайджанский государственный экономический университет (UNEC), Баку, Азербайджан*

**Резюме.** Принимая во внимание стабильное развитие торговых и инвестиционных отно-шений между Азербайджанской Республикой и Китайской Народной Республикой, в статье исследовано влияние пандемии COVID-19 на импортно-экспортные операции между этими странами.
**Ключевые слова:** COVID-19, торговля, Китайская Народная Республика, важнейшие виды продукции, экспорт.

## 1. Giriş

Qeyd etmək lazımdır ki, bu gün Çin dünya iqtisadiyyatında baş verən yeni reallıqlar çərçivəsində olduqca yüksək iqtisadi gücə sahib olmaqdadır. Belə ki, hətta COVID-19 pandemiyası dönəmində belə Çin iqtisadiyyatının makroiqtisadi göstəricilərinin digər ölkələr qədər iflic vəziyyətə düşməməsi digər tərəfdən isə bu böhrana qarşı qısa bir zaman kəsiyində güclü iqtisadi immun sisteminin formalaşdırması Çin iqtisadiyyatının dayanıqlılığın təmin edilməsini deməyə bizə imkan verməkdədir. Mövcud tendensiyalar Çin iqtisadiyyatının ABŞ və ya AB-dən daha sürətli böyüməyə davam edəcəyini göstərir. Nəticə etibarilə bir çox alimlər və tədqiqatçılar o cümlədən biz düşünürük ki, Çinin qlobal iqtisadiyyatda mütləq və nisbi çəkisi yalnız artacaq [1].

Azərbaycanın isə bu gün öz məhsullarını Çin kimi böyük bir bazara çıxararaq özünün ixrac ölkələri xəritəsini genişləndirməsi olduqca zəruridir. Digər tərəfdən isə qeyd etməliyik ki, bu gün Azərbaycan ilə Çin arasında mühüm növ məhsulların ticarətində müəyyən müsbət trendlər görülməkdədir ki, bu da öz növbəsində iki ölkə arasında qarşılıqlı iqtisadi əlaqələrin

inkişafının davamlılığına işarət edir. Azərbaycan Çinin bütün postsovet ölkələrinə artan marağının bariz nümunəsidir [2]. Çin nöqteyi-nəzərindən Azərbaycan coğrafi mərkəz, strateji tərəfdaş və Xəzər dənizindən Qərbə qədər mövcud nəqliyyat infrastrukturunun sahibidir [3]. Məhz bu səbəbdən Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsi üçün mühüm ölkələrdən birinə çevrilir və bu da öz növbəsində iki ölkə arasında ikitərəfli əməkdaşlığı da gücləndirir [4]. Lakin qeyd etmək lazımdır ki, COVID-19 pandemiyası bütün dünyada mövcud olan struktur böhranı və təklif və tələb inflyasiyasının üst üstə düşməsindən formalaşan yeni növ inflyasiyanın daha dərinləşməsinə səbəb olmuşdur. Bu səbəbdən araşdırmamızda bizə maraqlı olan əsas məsələlərdən biri də məhz COVID-19 pandemiyasının Azərbaycandan Çinə baş tutan ixraca təsiridir.

## 2. COVID-19 pandemiyası dönəmində Azərbaycan və Çinə ixrac edilən mühüm növ məhsulların başlıca növləri

İlk olaraq daha dərindən analiz edə bilmək üçün mühüm növ məhsulların ixracına nəzər salacağıq. Araşdırmamızda əsas hədəf COVID-19 Azərbaycandan Çinə ixraca təsiri olduğu üçün istifadə edəcəyimiz il aralıqları məhz 2018-2020-ci illər olacaqdır. İlk öncə Azərbaycanın Çinə ixrac etdiyi mühüm növ məhsulların sözügedən illər çərçivəsində təhlil edək.

**Cədvəl 1.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən mühüm növ məhsullar

| 2018 | 2019 | 2020 |
|---|---|---|
| Təbii üzüm şərabları və üzüm suslosu | Təbii üzüm şərabları və üzüm suslosu | Təbii üzüm şərabları və üzüm suslosu |
| Xam neft | Xam neft | Xam neft |
| Etilen polimerləri, ilkin formada | Etilen polimerləri, ilkin formada | Etilen polimerləri, ilkin formada |
| --- | Bentonit gili | --- |
| --- | Reaktiv mühərriklər üçün kerosin yanacağı | Reaktiv mühərriklər üçün kerosin yanacağı |
| Qara metallardan yarımfabrikatlar | --- | --- |
| --- | --- | Neft koksu |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK)

Cədvəl 1-ə baxdığımız zaman olduqca maraqlı məsələləri analiz edə bilirik. Belə ki, cədvələ əsasən deyə bilərik ki, 3 il üzrə davamlı olaraq Azərbaycandan təbii üzüm şərabları və üzüm suslosu eyni zamanda ilkin formada etilen polimerləri və xam neft Çinə ixrac edilmişdir. Lakin 2018 və 2020-ci illərdə betonit gilinin ixracı mövcud olmamışdır. Fəqət 2019-2020-ci illərdə reaktiv mühərriklər üçün kerosin yanacağının ixrac edildiyini görürük. Qara metallardan yarımfabrikatlar yalnız 2018-ci ildə, neft koksu isə yalnız 2020-ci ildə Azərbaycandan Çinə

ixrac edilmişdir. Bütövlükdə 2018-ci ildə 4 adda, 2019 və 2020-ci ildə 5 adda məhsul Azərbaycandan Çinə ixrac edilmişdir. Məhsul çeşidləri üzrə artma görsək də hələ ki, konkret təsir haqqında bir fikir söyləyə bilmərik. COVID-19 pandemiyasının təsirini biz araşdırmamızın növbəti bölməsində ixrac edilən məhsulların həcminin analizində görə biləcəyik.

## 3. COVID-19 pandemiyası dönəmində Azərbaycandan Çinə ixrac edilən mühüm növ məhsulların dinamikası

İlk öncə qeyd etmək lazımdır ki, COVID-19 pandemiyasının ən kəskin dalğasının mövcud olduğu 2020-ci ildə Azərbaycandan Çinə betonit gili və qara metallardan yarımfabrikatlar ixrac edilməmişdir. Bu səbəbdən bu məhsulların ötən ilki göstəricilərinin təhlili COVID-19 pandemiyasının təsirini araşdırmaq üçün bizə lazım olmayacaqdır. Bu məhsulların özlərinin 2020-ci ildə ixrac edilməməsi artıq pandemiyanın mənfi təsirlərinindən bizə impulslar verməkdədir. Neft koksu da həmçinin yalnız 2020-ci ildə ixrac edildiyi üçün ötən illərin göstəriciləri yoxdur. Bu səbəbdən neft koksunu da araşdırmamızda təhlil edə bilmirik.

**Cədvəl 2.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən bəzi mühüm növ məhsulların satış miqdarı və məbləği

| | | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | Miqdarı | 14.3 | 12,0 | 9,5 |
| | Məbləği, min ABŞ dolları | 388,8 | 410,9 | 285,9 |
| | | | | |
| Etilen polimerləri, ilkin formada, ton | Miqdarı | 30.193,5 | 38.148,8 | 53.532,5 |
| | Məbləği, min ABŞ dolları | 27.232,4 | 28.756,7 | 36.656,2 |
| | | | | |
| Xam neft, min ton | Miqdarı | 1.342,2 | 1.414,2 | 2.058,9 |
| | Məbləği, min ABŞ dolları | 714.087,9 | 714.127,5 | 386.274,0 |
| | | | | |
| Reaktiv mühərriklər üçün kerosin yanacağı, ton | Miqdarı | __ | 1.015,1 | 637,1 |
| | Məbləği, min ABŞ dolları | __ | 734,5 | 491,0 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK)

Nəticə etibarilə Azərbaycandan Çinə ixrac edilən məhsullardan dinamikasını təhlil edəcəyimiz məhsullar məhz təbii üzüm şərabları və üzüm suslosu, ilkin formada etilen polimerləri, reaktiv mühərriklər üçün kerosin yanacağı və xam neft olacaqdır.

Cədvəl 2-dən olduqca maraqlı məsələləri görürük. İki məhsul üzrə azalma iki məhsul üzrə isə artım görməkdəyik. Belə ki, Azərbaycandan Çinə ixrac edilən təbii üzüm şərabları və üzüm suslosunun həm miqdarında həm də məbləğində azalma görürük. Daha aydın analiz etmək üçün cədvəl 2 ilə paralel olaraq qrafik 1-ə də nəzər salaq.




**Qrafik 1.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən təbii üzüm şərabları və üzüm suslosunun satış miqdarı və məbləği

**Mənbə:** Qrafik ARDSK göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Qrafik 1-ə nəzər saldığımızda azalmanı görə bilirik. Belə ki, Azərbaycandan Çinə ixrac edilən təbii üzüm şərabları və üzüm suslosunun 2018-ci ildə miqdarı 14.3 min dkl 2020-ci ildə isə 9.5 min dkl olmuşdur ki, bu da 2018-ci il ilə müqayisədə təqridən 1.5 dəfə daha azdır. Digər tərəfdən əgər satılan məhsulun satış məbləğini analiz etsək görərik ki, 2018-ci ildə, Azərbaycandan Çinə ixrac edilən təbii üzüm şərabları və üzüm suslosunun məbləği 388.8 min ABŞ dolları olmuşdusa, 2020-ci ildə bu göstərici 285.9 min ABŞ dolları olmuşdur ki, bu da 2018-ci il ilə müqayisədə 1.4 dəfə daha azdır.

Eyni zamanda Azərbaycandan Çinə ixrac edilən reaktiv mühərriklər üçün kerosin yanacağının ixracının həm miqdarında həm də satış məbləğində azalmanı görə bilirik. Belə ki, qrafik 2-yə nəzər salsaq görürük ki, Azərbaycandan Çinə ixrac edilən reaktiv mühərriklər üçün kerosin yanacağının miqdarı 2019-cu ildə miqdarı 1.051,1 ton olmuşdursa pandemiyanın ən pik dönəmi kimi götürdüyümüz 2020-ci ildə bu göstərici 637.1 ton təşkil etmişdir ki, bu da 2019-cu il ilə müqayisədə 1.7 dəfə azdır. Digər tərəfdən Azərbaycandan Çinə ixrac edilən reaktiv mühərriklər üçün kerosin yanacağının 2019-cu ildə satış məbləği 734.5 min ABŞ dolları olmuşdursa 2020-ci ildə sözügedən göstərici 491.0 min ABŞ dolları olmuşdur. Bu isə nəticə etibarilə 2019-cu il ilə müqayisədə 1.5 dəfə daha azdır. Qeyd etmək lazımdır ki, 2018-ci ildə

Azərbaycandan Çinə reaktiv mühərriklər üçün kerosin yanacağı ixrac edilmədiyi üçün qrafik 2-də bu il öz əksini tapmamışdır.




**Qrafik 2.** 2019-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən reaktiv mühərriklər üçün kerosin yanacağının satış miqdarı və məbləği
**Mənbə:** Qrafik ARDSK göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Digər iki məhsulda isə artım müşahidə edilməkdədir. Belə ki, qrafik 3-ə nəzər salsaq görərik ki, Azərbaycandan Çinə ixrac edilən ilkin formada etilen polimerlərinin 2018-ci ildə miqdarı 30.193,5 ton olmuşdursa 2020-ci ildə bu göstərici 53.532,5 ton təşkil etmişdir ki, bu da öz növbəsində 2018-ci il ilə müqayisədə 1.8 dəfə çoxdur.




**Qrafik 3.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən ilkin formada etilen polimerlərinin satış miqdarı və məbləği
**Mənbə:** Qrafik ARDSK göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Həmçinin qrafik 3-dən görürük ki, Azərbaycandan Çinə ixrac edilən ilkin formada etilen polimerlərinin 2018-ci ildə satış məbləği 27.232,4 min ABŞ dolları olmuşdursa 2020-ci ildə sözügedən göstərici 36.656,2 min ABŞ dolları olmuşdur ki, bu da öz növbəsində 2018-ci il ilə müqayisədə 1.4 dəfə çoxdur.

Buna oxşar göstəricini Azərbaycandan Çinə xam neft ixracında da görə bilirik lakin burada müəyyən fərqli məqamlar vardır ki, COVID-19 pandemiyasının daha bir təsirini analiz etməyə bizə imkan verir. Belə ki, qrafik 4-ə nəzər salsaq görürük ki, Azərbaycandan Çinə ixrac edilən xam neftin miqdarı 2018-ci ildə 1.342,2 min ton olmuşdursa 2020-ci ildə bu göstərici 2.058,9 min ton olmuşdur ki, bu da 2018-ci il ilə müqayisədə 1.5 dəfə çoxdur. Lakin burda maraqlı digər məqam xam neft ixracının satış məbləğinin azalmasıdır. 2018-ci ildə Azərbaycandan Çinə ixrac edilən xam neftin satış məbləği 714.087,9 min ABŞ dolları olmuşdursa 2020-ci ildə sözügedən göstərici 386.274,0 min ABŞ dolları olmuşdur. Bu da 2018-ci ildəki göstəricidən 1.9 dəfə azdır.




**Qrafik 4.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixrac edilən xam neftin satış miqdarı və məbləği
**Mənbə:** Qrafik ARDSK göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Burada önəmli bir məsələ isə xam neft ixracının miqdarının artmasına baxmayaraq satışda əldə edilən gəlirin aşağı düşmüş olmasıdır. Bu isə birbaşa olaraq COVID-19 pandemiyası nəticəsində dünyada istehsal, nəqliyyat və logistika zəncirinin qırılması ilə bağlıdır. Çünkü bu qırılma və kütləvi qapanmalar neftə olan tələbi azaltmış nəticə etibarilə neft qiymətlərində azalma müşahidə olunmuşdur [5]. Əgər 2020-ci ildə neft qiymətləri 2018-ci ildəki qiymətlər ilə eyni olsaydı Azərbaycan 2020-ci ildə əldə etdiyi satış gəlirlərindən təqribən 1.5 dəfə daha çox gəlir əldə etməli idi. Təbii ki, bu da COVID-19 pandemiyasının

Azərbaycandan Çinə mühüm növ məhsullar çərçivəsində ixraca mənfi təsir etdiyini deməyə imkan verir. Məsələni bütövlükdə ixracın artım tempi ilə analiz etmək üçün tədqiqatımızda ələ aldığımız illər üzrə ixracın dinamikasına baxaq.

## 4. COVID-19 pandemiyası çərçivəsində Azərbaycandan Çinə ümumi ixracın dinamikasının təhlili

COVID-19 pandemiyasının Azərbaycandan Çinə ixracını daha yaxşı analiz edə bilmək üçün ümumi ixrac dinamikasını təhlil etmək labüddür. Araşdırmamızın əvvəlində də qeyd etdiyimiz kimi beynəlxalq hüquq çərçivəsində Tayvan ÇXR-in bir əyaləti olduğuna görə biz də öz tədqiqatımızda ümumi ixracı analiz etdiyimiz zaman Tayvana baş tutan ixracı ayırmayaraq ümumi ixrac üçün həm ÇXR-ə həm də Tayvana ixrac edilən məhsulların satış məbləğlərini toplayırıq.

**Cədvəl 3.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixracın ümumi dinamikası
**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (ARDSK)

| | **2018** | **2019** | **2020** |
|---|---|---|---|
| ÇXR-ə ixrac (min ABŞ dolları) | 113.573,5 | 752.162,6 | 432.760,5 |
| Tayvana (Çinin əyaləti) ixrac (min ABŞ dolları) | 714.186,1 | 262.197,4 | 48.034,6 |
| Ümumi ixrac (min ABŞ dolları) | 827.759,6 | 1.014.360,0 | 480.795,1 |




**Qrafik 5.** 2018-2020-ci illər ərzində Azərbaycandan Çinə ixracın ümumi dinamikası
**Mənbə:** Qrafik ARDSK göstəricilərinə əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 3 və qrafik 5-ə nəzər saldığımız zaman görürük ki, 2020-ci ildə ciddi şəkildə ixracda azalma müşahidə olunur. Belə ki, 2018-ci ildə Azərbaycandan Çinə ümumi ixrac 827.759.6 min ABŞ dolları idisə 2020-ci ildə ümumi ixrac 480.795.1 min ABŞ dolları olmuşdur ki, bu da 2018-ci il ilə müqayisədə 1.7 dəfə azdır. Bu isə öz növbəsində COVID-19 pandemiyasının Azərbaycandan Çinə ümumi ixraca mənfi təsir etdiyini deməyə bizə imkan verir.

**Nəticə.** Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyası dünya iqtisadiyyatında struktur böhranı daha da dərinləşdirmiş və bunun nəticəsində dünya nəqliyyat, logistika və istehsal zəncirində ciddi problemlər yaranmışdır. Təbii ki, bu proses Azərbaycan Çinə məhsul ixracına da öz təsirini göstərmişdir. Belə ki, 2018-ci ildə Azərbaycandan Çinə ixrac edilən mühüm növ məhsul kateqoriyasında olan qara metallardan yarımfabrikatlar və 2019-cu ildə ixrac edilən betonit gili 2020-ci ildə ixrac edilməmişdir.

Digər tərəfdən Azərbaycandan Çinə ixrac edilən təbii üzüm şərabları və üzüm suslosunun eyni zamanda reaktiv mühərriklər üçün kerosin yanacağının həm miqdarında həm də satış məbləğində azalma müşahidə edilmişdir. 2020-ci ildə xam neft ixracının miqdarında artım olsa da satış məbləğində ciddi azalma olmuşdur ki, bu da 2018-ci il ilə müqayisədə 1.5 dəfəlik bir itki deməkdir. Bütövlükdə araşdırmamızın yekununda qeyd edə bilərik ki, COVID-19 pandemiyası Azərbaycandan Çinə ixrac edilən mühüm növ məhsulların həm miqdarına həm də məbləğinə mənfi təsir göstərərək ümumi ixracın həcmini də azaltmışdır.

## Ədəbiyyat

1. Пехтерева Е.А. (2020). Влияние пандемии коронавируса на экономику Китая. Экономические и социальные проблемы России, 3, с. 13-36.
2. Мокрецкий А.Ч. (2018). Китайская инициатива «Один пояс, один путь» как вектор внешнеэкономической политики Азербайджана. Китай в мировой и региональной политике. История и современность, 23 (23), с. 319-335.
3. Babayev B., Ismailzade F. (2020). Azerbaijan’s Contribution to the Chinese Belt & Road Initiative. 8 p.
4. Ван Л. (2019). Торгово-экономическая и финансовая политика Китая в Азербайджане. Международные отношения, 1, с. 140-148.
5. Kuloğlu, A. (2021). COVID-19 Krizinin Petrol Fiyatları Üzerine Etkisi. Ekonomi Politika ve Finans Araştırmaları Dergisi, 6(3), s. 710-727.